# BİBLİOQRAFİYA CƏMİYYƏTLƏRİ VƏ ONLARIN YARADILMASI ZƏRURƏTİ

**Namiyə Xəlilova**
*Biblioqrafiyaşünaslıq kafedrası, müəllim*
*nebiyeva.namiye@mail.ru*

***Xülasə:*** *Biblioqrafiya cəmiyyətləri müxtəlif dövlətlərin, eyri-hökumət təşkilatlarının və fərdi şəxslərin birliyidir. Bu birliklər biblioqrafiyanın müxtəlif sahələrində ümumi məqsədlərə nail olmaq məqsədi daşıyır və beynəlxalq və milli əməkdaşlığın əsas formasını təmsil edir. Bu məqalə biblioqrafiya cəmiyyətləri anlayışı və ayrı-ayrı ölkələrdən olan əlaqədar cəmiyyətlər barədə lakonik məlumat verir.*
***Açar sözlər:*** *biblioqrafiya, biblioqrafiya cəmiyyəti, assosiasiya.*

**Giriş.** Hər cür elmi cəmiyyətlərin yaradılması yeni dövrün diktəsinə çevrilib. Kollektiv prinsiplər sosial idrakın getdikcə mürəkkəbləşən problemlərinin daha səmərəli həllini təmin edir. Bu, həm kitab nəşri, həm də biblioqrafiya üçün tam ölçüdə doğrudur. 19-cu əsrin son rübündə, biblioqrafik fəaliyyət kütləvi xarakter aldıqda, biblioqrafik mətbuatda universal xarakterli və geniş əhatəli biblioqrafik cəmiyyətin təşkili haqqında bir növ müzakirələr başladı. Təşəbbüskarlar biblioqrafları birləşməyə və onların qarşısına bir sıra vəzifələr qoymağa çağırıb. Beləliklə biblioqrafiya cəmiyyətlərinin yaradılması ideyası irəli sürülmüşdür.

**Məsələnin qoyuluşu.** Biblioqrafiya cəmiyyətləri və ya assosiasiyaları yerli, milli və beynəlxalq səviyyədə kitabxanaları və biblioqrafları birləşdirir. Biblioqrafiya cəmiyyətləri çox vaxt öz fərdi və institusional üzvlərinə əməkdaşlığa, biblioqrafik informasiya mübadiləsinə, təhsilə, tədqiqata və inkişafa imkan verən resurslar təqdim edir. Bir çox peşəkar biblioqrafiya cəmiyyətləri mövcuddur. İxtisaslaşmış qruplar mövzu sahəsinə, coğrafiyaya və ya hər ikisinə əsaslana bilər. Peşəkar biblioqrafiya birlikləri on doqquzuncu əsrin ikinci yarısından yaranmağa başlayıb.

**Məsələnin həlli. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti** 1923-cü ildə Nəriman Nərimanovun təşəbbüsü ilə yaradılmış, 1929-cu ilədək fəaliyyət göstərmişdir. 1925-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin tabeliyində verilmişdir. Cəmiyyətin işində Səməd ağa Ağamalıoğlu, Tağı Şahbazi Simurğ, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Bəkir Çobanzadə, İvan Meşaninov və başqaları yaxından iştirak etmişlər. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması və onun respublikanın təbii sərvətlərinin, məhsuldar qüvvələrinin inkişaf yollarınının, ölkə tarixinin, arxeologiya, etnoqrafiya, dil problemlərinin öyrənilməsi sahəsində apardığı tədqiqatlar elmi-köməkçi biblioqrafiyanın da qarşısında ciddi vəzifələr qoyur. 1929-cu

ildə bu cəmiyyət Azərbaycan Dövlət Elmi Tədqiqat İnstituna çevrilmişdir. Azərbaycanı Tədqiq və Öyrənmə Cəmiyyətinin fəaliyyətə başladığı ilk gündən onun nəzdində "Kitabxana-biblioqrafiya bürosu" yaradılmışdır. Büronun mühüm vəzifəsi Azərbaycanla əlaqədar ədəbiyyatı toplamaq, onun haqqında biblioqrafik informasiya verməkdən ibarət idi. (1, səh 46)

**Amerika Biblioqrafiya Cəmiyyəti** Şimali Amerikada kitabların və əlyazmaların fiziki obyekt kimi öyrənilməsinə həsr olunmuş ən qədim elmi cəmiyyətdir. 1904-cü ildə təşkil edilmiş və 1927-ci ildə biblioqrafik tədqiqatları təşviq etmək və biblioqrafik nəşrlər buraxmaq məqsədi ilə birləşdirilmişdir. Bu məqsədlərə görüşlər, mühazirələr və təqaüd proqramları, həmçinin kitabların və Şimali Amerikanın aparıcı biblioqrafik jurnalı olan Amerika Biblioqrafiya Cəmiyyətinin məqalələrinin nəşri daxil olmaqla geniş fəaliyyətlər vasitəsilə nail olunub. Cəmiyyət biblioqrafik problemlər və layihələrlə maraqlanan hər kəs üçün açıqdır və onun üzvlərinə dünya üzrə biblioqraflar, kitabxanaçılar, professorlar, tələbələr, kitab satıcıları və kolleksiyaçılar daxildir.

Amerika Biblioqrafiya Cəmiyyəti ənənəvi və yeni formatlarda kitabların və digər mətn əsərlərinin öyrənilməsini təşviq edən beynəlxalq, fənlərarası elmi təşkilatdır. Amerika Biblioqrafiya Cəmiyyəti bu missiyanı ictimai proqramlara ev sahibliyi etməklə, elmi tədqiqatları maaliyyələşdirməklə, mükafatlar verməklə, nəşrlər buraxmaqla və əlaqədar təşkilatlarla əməkdaşlıq etməklə həyata keçirir.

Amerika Biblioqrafiya Cəmiyyəti akademik və qeyri-akademik dairələri, tələbələri, kiçik elmi işçiləri, böyük elmi işçiləri və maddi mətnlərlə maraqlanan hər kəsi əhatə edən bir cəmiyyət qurmağa çalışır. Hər kəs qabiliyyətindən, yaşından, vətəndaşlıq statusundan, etnik mənsubiyyətindən, cinsindən, gəlir səviyyəsi, milliyyəti, fiziki görünüşü, irqi, dini və ya texniki təcrübəsindən asılı olmayaraq bu cəmiyyətin üzvü ola bilər.

**Böyük Britaniya Biblioqrafiya Cəmiyyəti.** 1892-ci ildə yaradılmış bu Cəmiyyət kitabın və onun tarixinin tədqiqi ilə məşğul olur.

Cəmiyyətin məqsədləri:

- tarixi, analitik, təsviri və mətn biblioqrafiyası, çap, nəşriyyat, kitab satışı, cildləmə və kolleksiyaçılıq tarixi sahələrində tədqiqatları təşviq etmək;
- məruzələrin oxunduğu və müzakirə edildiyi iclaslar keçirmək;
- biblioqrafiya ilə bağlı jurnal və kitabları çap etmək və nəşr etmək;
- biblioqrafik işi həyata keçirmək;
- vaxtaşırı biblioqrafiya sahəsində xidmətlərinə görə medalla təltif etmək;
- qrantlar və təqaüdlər verməklə biblioqrafik tədqiqatları dəstəkləmək.

**İtaliya Biblioqrafiya və Kitabxana Elmləri Cəmiyyəti** biblioqrafiya, kitabxanaçılıq, kitab və kitabxanaların tarixi ilə əlaqəli müxtəlif aspektlər ilə bağlı fikir və məlumatların müzakirəsini və dövriyyəsini təşviq etmək məqsədiylə yaradılıb. Cəmiyyət fənlərin metodologiyaları, tədqiqatların əlaqələndirilməsi, ümumi təşəbbüslərin həyata keçirilməsi, o cümlədən eyni fənlərin potensialının elmi tədqiqatlar panoramasında zənginləşdirilməsi, həmçinin İtaliyada və xaricdə digər alimlər və analoji birliklərlə əlaqə yaratmaq istiqamətində fəaliyyət göstərir.



İtaliya Biblioqrafiya və Kitabxana Elmləri Cəmiyyəti 21 sentyabr 2011-ci ildə Marko Santoro və digər həmkarları tərəfindən irəli sürülmüş sektor üzrə universitet professorlarının ümumi yığıncağından sonra 19 oktyabr 2011-ci ildə milli birlik kimi yaradılmışdır.

1891-ci ildə Belçikalı biblioqraf və sahibkar Paul Otlet hüquqşünas və gələcək Nobel Sülh Mükafatı laureatı Henri La Fonten ilə görüşdü və bununla uzunmüddətli əməkdaşlığın başlanğıcı qoyuldu. 1895-ci ildə Otlet və La Fonten **Beynəlxalq Biblioqrafiya İnstitut**unu yaratdılar və biblioqrafik məlumatların qlobal kliring mərkəzi rolunu oynayacaq Universal Biblioqrafiya Repertuarı yaratmaq planlarını elan etdilər. Digər Avropa kitabxanaçılarının əhəmiyyətli müqavimətinə baxmayaraq, onlar öz planlarını irəli sürərək institut üçün qərargah yaratdılar və Belçika hökumətindən tanınma və kiçik subsidiya əldə etdilər. İlk növbədə dövlət subsidiyaları hesabına institutun kolleksiyası sürətlə böyüdü. 1904-07-ci illərdə Otlet dünyanın hər yerindən alimlərin əməkdaşlığı ilə 10 il ərzində hazırlanmış yeni təsnifat sxeminin ilk tam versiyasını – Universal Onluq Təsnifatı (UOT) nəşr etdi.

1910-cu ildə Otlet və La Fonten 132 beynəlxalq təşkilatdan ibarət federasiya olan Beynəlxalq Assosiasiyalar İttifaqını yaratdılar.

**Beynəlxalq İnformasiya və Sənədləşdirmə Federasiyası, Fransa Beynəlxalq İnformasiya və Sənədləşdirmə Federasiyası** (FID) biblioqrafik təsnifata vahid və mərkəzləşdirilmiş yanaşmanı təşviq etmək üçün 1895-ci ildə Beynəlxalq Biblioqrafiya İnstitutu kimi əsası qoyulmuş beynəlxalq kitabxana təşkilatıdır. BBİ 1938-ci ildə Beynəlxalq Sənədləşdirmə Federasiyası adlandırıldı. FID-in hazırkı məqsədləri beynəlxalq əməkdaşlıq vasitəsilə fiziki elmlər, sosial elmlər və humanitar elmlərdə informasiya elmi və sənədləşmə idarəçiliyi sahəsində tədqiqatlar və inkişafları təşviq etməkdir. O, həm mexaniki, həm də elektron vasitələrlə məlumatın təşkili, saxlanması, axtarışı, yayılması və qiymətləndirilməsi ilə bağlı problemlərə aiddir. FID bir çox beynəlxalq təşkilatlarla məsləhətçi statusuna malikdir. Qərargahı Hollandiya, Haaqa şəhərindədir.

**Türk Kitabxanaçılar Dərnəyi** 19 Noyabr 1949-cu ildə Adnan Ötükenin rəhbərliyi ilə Türk Kitabxanaçılarını peşəkar bir təşkilatda toplamaq, onların problemlərini müzakirə edəcəkləri və həlli yollarını axtara biləcəkləri bir mühit yaratmaq məqsədi ilə yaradılmışdır. İlk illərdə Ankarada fəaliyyətini davam etdirən Dərnək 3 iyun 1961-ci ildə əsas nizamnaməsinə edilən dəyişikliklə ölkə daxilində əyalət və rayonlarda şöbələr açmaq fürsəti tapdı. TKD yarandığı gündən 26 il sonra, 26 fevral 1975-ci ildə ictimai maraqlar naminə fəaliyyət göstərən dərnək statusunu qazanmışdır. Birliyin məqsəd və funksiyalarının həyata keçirilməsində mühüm addım olacağını nəzərə alaraq, 1983-cü ildə ilk köklü dəyişiklik edildi. Bu dövrdə yenidən edilən əsasnamə dəyişikliyinə əsasən, birliyin fəaliyyəti təkcə kitabxana və kitabxanaçılıqla məhdudlaşmayıb, informasiya elmi və arxiv işini də əhatə etməklə genişlənib. Beləliklə, TKD ar-

xivçiləri və informasiya alimlərini, eləcə də kitabxanaçıları bir araya gətirmək istiqamətində mühüm addım atmışdır.

Türkiyə Kitabxanaçılar Dərnəyi 1952-ci ildə "Türkiyə Kitabxanaçılar Dərnəyi" bülleteni nəşr etməyə başlamışdır. 1987-ci ildə adı Türk Kitabxanaçılığı olaraq dəyişdirilən jurnal bu gün də hər 3 aydan bir nəşr olunur.

Türkiyə Kitabxanaçılar Dərnəyi müasir, rasional və mütərəqqi perspektivi, ölkənin hər yerinə yayılmış filialları və günü-gündən artan üzvləri ilə dünyada baş verənləri yaxından izləməklə fəaliyyətini davam etdirir.

Rusiyada Biblioqrafiya cəmiyyətinin yaradılması ideyası da F.T.Tarasov tərəfindən "Bizim Biblioqrafiyamız" adlı tarixi-tənqidi essesində 1890-cı ildə işlənmişdir. Elə həmin il N.M.Lisovski "Biblioqrafiya işinin təşkili haqqında" məqaləsində Rusiyada biblioqrafik cəmiyyətin yaradılması üçün bir layihə irəli sürmüşdür. Biblioqrafiya cəmiyyətinin yaradılması ideyası ətrafında müzakirələr davam edərkən yeni ideyalar, layihələr irəli sürülür, regionlarda və paytaxtda qeyri-rəsmi biblioqrafik birliklər yaranmağa başlayır. Ən məşhuru 1889-cu ilin oktyabrında fəaliyyətə başlayan və 1900-cü ilin fevralında Moskva Universitetində Rus Biblioqrafiya Cəmiyyətinə çevrilən Moskva Biblioqrafiya Dərnəyi idi. 1899-cu ilin mayında Sankt-Peterburqda Rus Bibliologiya Cəmiyyəti təşkil edildi. Moskvada olduğu kimi, 1906-cı ilin oktyabrında Odessada yaranan biblioqrafik dairədən sonra, 1911-ci ilin martında Novorossiysk Universitetində Odessa Biblioqrafiya Cəmiyyəti yaradıldı. Nəhayət, 1916-cı ildə "Ədəbiyyat-Biblioqrafiya İnstitutu" adlı başqa bir cəmiyyət yarandı.

**Rusiya Biblioqrafiya Cəmiyyəti.** Moskva Universitetində yaradılmış Rusiya Biblioqrafiya Cəmiyyəti bütün rus kitablarını və əlyazmalarını təsvir etmək, habelə rus biblioqrafiyası üçün metodlar sistemini inkişaf etdirmək məqsədi ilə yaradılmış kitabsevərlərin elmi cəmiyyətidir.

19-cu əsrin sonu-20-ci əsrin əvvəlləri biblioqrafiyasının ən mühüm xarakterik xüsusiyyətləri onun siyasi, maarifləndirici və elmi informasiya vasitəsi kimi ictimai əhəmiyyətinin daha da artması, biblioqrafik nəşrlərin geniş demokratik dairələrə nüfuz etməsi idi. Rus Biblioqrafiya Cəmiyyəti Fransız Biblioqrafiya Cəmiyyəti kimi biblioqrafların və biblioloqların dünyada ilk təşkilatlarından biri idi. Rusiya Biblioqrafiya Cəmiyyəti Rusiyanın biblioqrafik həyatında rus kitablarının repertuarının yaradılması, ölkədə dövlət biblioqrafik qeydiyyatının və biblioqrafik təhsilin təşkili kimi mühüm işlərin başlanğıcında dayandı, o, iki tədbirin çağırılması ideyası ilə çıxış etdi. Moskva Biblioqrafiya Dərnəyinin mühüm vəzifəsi rus biblioqrafiyasının düzgün inkişafına - onun sistemi və metodlarına, habelə ümumilikdə kitab biznesi ilə bağlı müxtəlif texniki biliklərin işlənib hazırlanmasına və yayılmasına kömək etmək idi. Dərnəyin fəaliyyətə başladığı ilk ildə kitab muzeyi yaradılmış, xüsusi kitabxanadakı kitabların sayı 4000 addа artırılmış, elmi məruzələr sistemli şəkildə dinlənilmişdir. Dərnəyin fəaliyyətinin genişləndirilməsi onun 1900-cü il fevralın 13-də adının dəyişdirilərək Rus Biblioqrafiya Cəmiyyəti adlandırılması və 1930-



cu ildə bağlanana qədər mövcud olan Moskva Universitetinə aid edilməsi üçün əsas oldu. Cəmiyyətin fəaliyyəti 1930-cu ildə dayandırılmışdır.

Digər ölkələrdə olan bəzi biblioqrafiya cəmiyyətlərinə aşağıdakılar daxildir.

| Sıra No. | Biblioqrafiya Cəmiyyətləri | İl |
|---|---|---|
| 1. | Kembric Biblioqrafiya Cəmiyyəti | 1949 |
| 2. | Edinburq Biblioqrafiya Cəmiyyəti | 1890 |
| 3. | Oksford Biblioqrafiya Cəmiyyəti | 1922 |
| 4. | Virciniya Universitetinin Biblioqrafiya Cəmiyyəti | 1947 |
| 5. | Kanada Biblioqrafiya Cəmiyyəti | 1942 |
| 6. | Avstraliya və Yeni Zelandiya Biblioqrafiya Cəmiyyəti | 1969 |

**Nəticə.** Müasir cəmiyyətdə biblioqrafik fəaliyyət informasiya təminatı prosesində son dərəcə önəmli rola malikdir. Biblioqrafiyanın inkişafı üçün kitabxanalar və onların peşəkarları arasında əməkdaşlıq üçün mühüm rol oynayan biblioqrafiya cəmiyyətləri yaradılmışdır. Biblioqrafiya cəmiyyətlərinin əsas vəzifəsi kitabxana-informasiya müəssisələrində və elmi-tədqiqat mərkəzlərində peşəkar biblioqrafik bilikləri təkmilləşdirmək, genişləndirmək, biblioqraf peşələri arasında liderlik keyfiyyətini təmin etmək, biblioqrafik xidmətlərin təşviqi və təkmilləşdirilməsi, təhsil proqramlarının və digər innovativ proqramların təşviq edilməsindən ibarətdir. Biblioqrafiya cəmiyyəti biblioqrafiya ilə məşğul olan bütün şəxslərin bir araya gəlməsinə xidmət etməlidir. Xüsusilə, bu yaxınlaşma biblioqrafik işlərlə məşğul olan və bu məsələdə kifayət qədər təcrübəsi olmayanlar üçün faydalı ola bilər. Biblioqrafiya cəmiyyətləri öz üzvlərinə iki yolla fayda verməlidir:

- birincisi, işin ən yaxşı şəkildə yerinə yetirilməsinə töhfə vermək və
- ikincisi, bu cür kömək lazım olduğu hallarda maddi yardım etmək.

Cəmiyyət öz üzvlərinin ən yaxşı işinə görə bəzi hallarda pul mükafatları və digər mükafatlar verə bilər. Bundan əlavə, cəmiyyət öz üzvlərinə əsərlərinin yayılmasında kömək etməlidir. Cəmiyyət üzvlərinin əsərlərini uğurla yaymaq üçün müxtəlif nəşriyyatlarla, kitab satıcıları ilə, kitabxanalarla, təhsil və elm müəssisələri ilə, eləcə də hər il külli miqdarda kitab alan fiziki şəxslərlə əlaqələr qurmalıdır. Konkret biblioqrafik məqsədlə yanaşı, cəmiyyət ümumən tarixi və ədəbi məqsədlər güdə, öz fəaliyyət dairəsini mümkün qədər genişləndirə və ən azı biblioqrafiya ilə müəyyən əlaqəsi olan hər şeyə şamil edə bilər.

Bu tədqiqat biblioqrafiya cəmiyyətlərinin ümumi mənzərəsini əhatə edir. Araşdırmalar sözü gedən cəmiyyətlərin biblioqrafik fəaliyyətə və bu işin peşəkarlarının işinə təsirini ortaya qoyur . Bununla dünyanın bir çox yerində peşəkar biblioqrafiya cəmiyyətlərinin olduğunu görmək mümkündür. Bu cür peşəkar təşkilatların yaradılması ilə biblioqrafiyanın bir fəaliyyət sahəsi kimi əhəmiyyəti

ön plana çıxmışdır. Belə ki, bu cəmiyyətlər biblioqrafiyanın ümumi inkişafı üçün böyük rol oynayır, müasir, rasional və mütərəqqi perspektivi və üzvləri ilə dünyada baş verənləri yaxından izləyərək fəaliyyətlərini davam etdirirlər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik / Redaktoru: N.İ.İsmayılov. – Bakı.: Bakı Universiteti Nəşriyyatı, 2007. – 185 s.
2. https://bibsocamer.org/
3. http://bibsoc.org.uk/
4. https://cyberleninka.ru/
5. https://kutuphaneci.org.tr
6. https://sisbb.it/
7. http://redkayakniga.ru/



**Н.Хелилова**


**Библиографические общества и необходимость в них**


***Аннотация:*** *Библиографические общества представляют собой объединения различных государств, правительственных организаций и частных лиц. Эти ассоциации стремятся к достижению общих целей в различных областях библиографии и представляют собой основную форму международного и национального сотрудничества. В этой статье представлена краткая информация о концепции библиографических обществ и связанных с ними обществ отдельных стран.*



***Ключевые слова:*** *библиография, библиографическое общество, ассоциация*



**N.Xalilova**


**Bibliography societies and the need for them**


***Abstract:*** *Bibliography societies are associations of various states, governmental organizations and individuals. These associations aim to achieve common goals in various areas of bibliography and represent the main form of international and national cooperation. This article provides a brief overview of the concept of bibliographic societies and related societies from individual countries.*



***Keywords:*** *bibliography, bibliographic society, association*

***Rəyçi:*** *p.ü.f.dok.,dos.* ***N.İ.İsmayılov***